**AUDİT 2023, 1 (39), səh. 75-84.**
**AUDIT 2023, 1 (39), pp. 75-84.**
**АУДИТ 2023, 1(39), стр. 75-84.**

**DOI: 10.59610/bbu1.2023.75-84**

*Əliyeva Səbinə Təbriz qızı,*
*iqtisad üzrə fəlsəfə doktoru, dosent,*
*Azərbaycan Texniki Universiteti*
*E-mail: s_aliyeva99@mail.ru*
*© Əliyeva S. T., 2023*

**UOT - 338.24.021.8**

# HEYDƏR ƏLİYEVİN İQTİSADİ İNKİŞAF STRATEGİYASI VƏ YENİ KEYFİYYƏT MƏRHƏLƏSİ

## X Ü L A S Ə

İstər sovet dövründə istərsə də, müstəqillikdən sonra Azərbaycan xalqının və iqtisadiyyatının inkişafında müstəsna rol oynamış, dövrünün ən güclü şəxsiyyətlərindən biri olan Heydər Əliyev əsl liderə məxsus olan keyfiyyətlərdən uğurla istifadə edərək respublika hökümətini, bütün idarəetmə strukturlarını iqtisadiyyatda yaranmış geriliyin aradan qaldırılması işinə səfərbər etdi.

Müstəqillik günü Azərbaycan tarixinə ən düşərli ən parlaq gün kimi düşüb. Xalqımız dövlət müstəqilliyini bayram edir, çətin olsa da, milli istiqlalın şərəfli yolu ilə irəliləyir. Müstəqillik illəri xalqımız üçün özünüdərk və özünütəsdiq illəridir.

**Açar sözlər:** iqtisadi inkişaf strategiyası, təhsil sistemi, keyfiyyət təminatı, inteqrasiya, informasiya cəmiyyəti.

## G İ R İ Ş

Tarixin bütün dövrlərində dövlətin idarə olunmasına, cəmiyyətdə insanlar arasında nizamın təmin edilməsinə, həm də bu proseslərin inkişaf və yüksəliş məramına xidmət etməsinə obyektiv zərurət mövcud olmuşdur. Hər bir ölkənin dirçəliş və tərəqqi yoluna çıxması, tarix salnaməsindəki şanlı səhifələr, zəfər və qələbələr onun qismətinə düşən dahi şəxsiyyətlərin, siyasi liderin yaradıcı fəaliyyəti ilə mütanasib surətdə bağlı olmuşdur. Dövlətin taleyində həlledici rol oynamış lider şəxsiyyətlərin müxtəlif səbəblər üzündən öz missiyalarını başa vurmaları təbii narahatlıq, nigaranlıq hissləri doğurmuş, onların layiqli davamçılarının olmadığı təqdirdə isə hər hansı xalqın, millətin həyatında sonu görünməyən faciələrin başlanğıcı qoyulmuşdur.

Lider və dövlət, lider və inkişaf - bunlar bir-biri ilə sıx vəhdət təşkil edir. Lideri olmayan dövlət heç vaxt tərəqqi edə bilməz. Lideri olmayan dövlət heç vaxt tanına, beynəlxalq aləmdə nüfuz qazana bilməz. Lideri olmayan dövlət üzləşdiyi taleyüklü problemləri həll edə bilməz, dinamik və sabit inkişafdan qalar. Lideri olmayan dövlətin xalqı həmişə narahat yaşayar. Dünyanın inkişaf tarixi bütün bunlara əyani sübutdur. Bu gün qlobalaşan dünyada ən məhşur siyasətçilər, proqnozlaşdırıcılar şəxsiyyətin təntənəsi amilini müasir dövrün ən aparıcı inkişaf amillərindən biri hesab edirlər.

1969-cu ildə Azərbaycanın rəhbəri seçilən Ulu Öndər Heydər Əliyev də bütün bu məhdudiyyətlərlə, çətinliklərlə üzləşməli oldu. Üstəlik də respublika iqtisadiyyatında sözün əsl mənasında ağır vəziyyət yaranmışdı. Heydər Əliyev, ilk növbədə, iqtisadiyyatda yaranmış və-

AUDİT 2023, 1 (39), səh. 75-84.
AUDIT 2023, 1 (39), pp. 75-84.
АУДИТ 2023, 1(39), стр. 75-84.

ziyyətin, onu doğuran səbəbin sistemli təhlilini apardı, risklər edərək bir sıra təşkilati tədbirlər həyata keçirtdi. İttifaq hökuməti qarşısında respublikanın gələcək iqtisadi inkişafı ilə bağlı məsələlər qaldırdı və qısa vaxt ərzində Sövet hökumətinin Azərbaycan Respublikasının inkişafına dair xüsusi qərarının qəbul edilməsinə nail oldu.

**Ümummilli Lider Heydər Əliyevin idarəetmə prinsipi**

Dövrünün ən güclü şəxsiyyətlərindən biri olan Heydər Əliyev əsl liderə məxsus olan keyfiyyətlərdən uğurla istifadə edərək respublika hökumətini, bütün idarəetmə strukturlarını iqtisadiyyatda yaranmış geriliyin aradan qaldırılması işinə səfərbər etdi.

Müstəqillik günü Azərbaycan tarixinə ən düşərli ən parlaq gün kimi düşüb. Xalqımız dövlət müstəqilliyini bayram edir, çətin olsa da, milli istiqlalın şərəfli yolu ilə irəliləyir. Müstəqillik illəri xalqımız üçün özünüdərk və özünütəsdiq illəridir.

Vaxtilə vətənsevər şair Məhəmməd Hadi ürək ağrısı ilə "Yox millətimin xətti bu imzalar içində" deməklə ən ülvi arzusunu bildirmişdir. Bu təkcə bir şairin yox, bütün millətin arzusu idi. Bu gün azad və müstəqil Azərbaycan Respublikasının üçrəngli bayrağı dünyanın ən nüfuzlu qurumlarında, Birləşmiş Millətlər Təşkilatında və Avropa Şurasında qürurla dalğalanır. Azərbaycan xalqı müstəqil dövlətini təmsil etməkdən, öz xəttini dünya imzaları içində görməkdən fəxarət hissi keçirir.

Heydər Əliyev 1993-cü ildə yenidən hakimiyyətə gələndə onun böyük zəhmət hesabına inkişaf etdirdiyi iqtisadiyyat tamamilə dağılmış, Azərbaycan dərin və hərtərəfli iqtisadi, siyasi, hərbi, mənəvi-pisxoloji böhrana məruz qalmış, öz müstəqilliyini itirmək təhlükəsi ilə üz-üzə dayanmışdı. Azərbaycan iqtisadi və ərzaq təminatı cəhətdən xarici ölkələrdən tamamilə asılı vəziyyətə düşmüşdü.

Adı Azərbaycan tarixinə əbədi həkk olunmuş Heydər Əliyevin 1993-cü ildə respublika rəhbərliyinə qayıdışı Azərbaycan dövlətinin müstəqilliyinin əbədi olmasının siyasi-iqtisadi əsaslarının sarsılmazlığını təmin etdi. Heydər Əliyevin titanik fəaliyyəti nəticəsində ölkədə ictimai-siyasi, makroiqtisadi sabitlik təmin olundu. Azərbaycan qəddi-qamətini düzəltdi, ildən-ilə inkişaf etməyə başladı, beynəlxalq aləmdə sivil, demokratik cəmiyyət quran bir dövlət kimi etimad qazandı.

Heydər Əliyevin 1993-cü il iyunun 15-dən oktyabrın 3-dək Ali Sovetə rəhbərlik etdiyi dövrdə parlamentarizm ənənələri yeni nəfəs, yeni qüvvə aldı. Həmin dövrün son tarixi hadisələri, faciələrimiz parlamentin müzakirəsinə çıxarıldı, onlara hüquqi-siyasi qiymət verildi. Ordu quruculuğu sahəsində mühüm qərarlar qəbul edildi, əhalinin döyüş ruhunu qaldırmaq, müharibə dövrünə uyğun təbliğat aparmaq, qanunsuz silahlı dəstələri zərərsizləşdirmək üçün lazımi tədbirlər görüldü, ölkədəki vəziyyət barədə tez-tez xalqa məlumat verildi. Bu çox qısa müddət ərzində Azərbaycanın demokratik, hüquqi və dünyəvi dövlət kimi gələcək inkişafının təməli qoyuldu. Ali qanunverici orqanın sədri kimi çalışdığı cəmi 4 aylıq fəaliyyəti ilə sübut etdi ki, Azərbaycanın müstəqilliyini qoruyub saxlayan və inkişaf etdirən yeganə şəxs məhz Heydər Əliyevdir və sözün əsl mənasında xalqın gözü tərəzidir. Bunu 1993-cü il 3 oktyabr prezident seçkilərində seçicilərin 98,8 faizinin Heydər Əliyevə səs verməsi də Azərbaycan xalqının ölkənin taleyini bu görkəmli dövlət xadiminə həvalə etmək niyyətində olduğunu bir daha bütün dünyaya nümayiş etdirdi.

Azərbaycan Respublikasının Prezidenti kimi fəaliyyətə başladığı ilk günlərdən Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində separatçı ermənilər tərəfindən başlanmış Ermənistan-Azərbaycan müharibəsində 1994-cü il mayın 12-də atəşkəsə nail olundu. Bundan sonra ölkədə siyasi və iqtisadi sabitlik bərqərar oldu, siyasi sistemin təkmilləşməsi istiqamətində möh-

AUDİT 2023, 1 (39), səh. 75-84.
AUDIT 2023, 1 (39), pp. 75-84.
АУДИТ 2023, 1(39), стр. 75-84.

kəm addımlar atıldı və 1995-ci ildə müstəqil Azərbaycan Respublikasının yeni Konstitusiyası qəbul olundu. Onun rəhbərliyi ilə həyata keçirilən düşünülmüş tədbirlər nəticəsində əvvəlki iqtidarların dövründən başlayan sosial-iqtisadi tənəzzülün qarşısı alındı və 1996-cı ildən inkişaf başladı. Təbii ki, bütün bunlar elə də asan başa gəlmədi. Azərbaycanın inkişafını, Heydər Əliyevin hakimiyyətdə olmasını istəməyən bəzi daxili və xarici antiazərbaycan qüvvələr 1994 və 1995-ci illərdə dövlət çevrilişinə cəhdlər etmiş, terror aktları törətmək istəmişlər. Lakin Azərbaycan dövlətinin və xalqının, onun liderinin əleyhinə yönəlmiş bu qanunazidd hərəkətlərin və separatizm əməllərinin qarşısı Heydər Əliyevin düşünülmüş və uzaqgörən siyasəti sayəsində vaxtında və yüksək peşəkarlıqla alınmışdır.

Heydər Əliyev müstəqil və suveren Azərbaycanın daxili məsələlərini ustalıqla həll etməklə yanaşı xarici siyasətini də formalaşdırmağa başladı. Əvvəlki hakimiyyətlərin dövründə populist açıqlamalar, qeyri-real yanaşmalar nəticəsində qonşu ölkələrlə pozulmuş münasibətlər qaydasına salındı. Ümummilli Liderin çoxsaylı xarici səfərləri ilə Azərbaycanın dünyanın öndə gedən dövlətlərlə xoşniyyətli əlaqələri yaradılaraq möhkəmləndi və respublikamıza uğur gətirən və bu gün də davam etdirilən xarici siyasət xəttinin tətbiqinə başlandı. Azərbaycan həm Rusiya və həm də ABŞ və Avropa ölkələri ilə yaxın qonşuluq, dostluq və strateji tərəfdaşlıq münasibətləri yaratmağa nail oldu. Türkiyə ilə "bir millət - iki dövlət" prinsipi əsasında əlaqələr daha da möhkəmləndi.

Siyasi sabitlik əldə edildikdən və tərəfdaş ölkələrlə əlverişli əlaqələr qurulduqdan sonra ölkə iqtisadiyyatının inkişafı ilə bağlı çox ciddi islahatlara start verildi. Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycanın gələcəyini müəyyənləşdirən neft strategiyası işlənib hazırlandı və həyata keçirilməyə başlandı. Ciddi təzyiqlərə, bəzi böyük dövlətlərin etirazlarına baxmayaraq, Xəzərin Azərbaycan sektorundakı neft yataqlarının işlənməsi ilə bağlı "Əsrin müqaviləsi" imzalandı. Azərbaycanın enerji resurslarını dünya bazarlarına çıxarmaq üçün Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum neft və qaz kəmərlərinin tikintisinə başlandı. Bütün bunlar Ümummilli Liderin özünün dediyi kimi, Azərbaycanın müstəqilliyinin dönməz və əbədi olmasını təmin edən mühüm addımlar idi.

Görkəmli dövlət xadimi olan Heydər Əliyev respublikamıza ikinci rəhbərliyi dövründə ölkəmizdə baş qaldırmış qardaş qırğınının tezliklə qarşısını aldı, Azərbaycan dövlətini və xalqını zamanın ən çətin sınaqlarından məharətlə çıxararaq müasir Azərbaycan dövlətinin qurucusu olduğunu sübut etdi. Heydər Əliyev ikinci dəfə müstəqillik əldə edən Azərbaycanı nəinki qoruyub saxladı, həm də ölkənin ictimai-siyasi, sosial-iqtisadi və mədəni-mənəvi tərəqqisinə nail olmaqla onun dünyanın qabaqcıl ölkələri sırasına çıxmağını təmin etdi. Azərbaycan xalqı və Azərbaycan dövləti qarşısında misilsiz xidmətləri olan Heydər Əliyev sözün əsl mənasında dahi şəxsiyyət olduğunu sübut etdi. Qədirbilən xalqımız isə Ulu Öndəri özünün Ümummilli Lideri elan edərək onunla daim fəxr etdiyini bildirir.

Heydər Əliyev Azərbaycan dövləti və xalqı qarşısındakı xidmətlərini izah edərkən demişdir: "İstər bir azərbaycanlı, Azərbaycan Respublikasının vətəndaşı, istərsə də onun rəhbəri, Prezidenti kimi mənim həyat amalım yalnız sizə – bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizin, ölkəmizin iqtisadi, siyasi, mənəvi inkişafına xidmət olmuşdur. Bu yolda bütün gücümü və iradəmi yalnız müdrik və qədirbilən xalqımdan almışam. Ən çətin anlarda, ən mürəkkəb vəziyyətlərdə yalnız xalqıma arxalanmışam. Bu da mənə dözüm, iradə verib və bütün uğurlarımı təmin edib. Mən öz mənalı həyatımın düz 60 ilini xalqımın bu günü və sabahı ilə yaşamışam. Bunun son on ili müstəqil Azərbaycan dövlətinə xidmətdə keçib".

Ümummilli Liderimiz Heydər Əliyevin bu müdrik kəlamları Onun müstəqil Azərbaycan

**AUDİT 2023, 1 (39), səh. 75-84.**
**AUDIT 2023, 1 (39), pp. 75-84.**
**АУДИТ 2023, 1(39), стр. 75-84.**

dövləti, xalqımızın xoşbəxt gələcəyi naminə fəaliyyətinin manifestidir. XX əsr dünya tarixinin parlaq simalarından olan, xalqımızın müstəqillik arzusunu konkret dövlət modelində gerçəkliyə çevirərək milyonların qəlbində əbədi abidə ucaldan Ulu Öndərimiz Heydər Əliyev həm də müstəqil Azərbaycanın inkişaf strategiyasının müəllifi kimi böyük ehtiramla anılır. Gəncliyində memar olmaq istəyən dahi şəxsiyyət möhtəşəm bir abidənin qurucusu olmuş, özünün şah əsəri olan müstəqil Azərbaycan dövlətini yaratmışdır.

Heydər Əliyev şəxsiyyətinin miqyası, böyüklüyü və əzəməti tarixin onun öhdəsinə buraxdığı taleyüklü məsələnin həllini təmin etmək qüdrətini nümayiş etdirdi. Bununla Azərbaycanın tarixində xilaskar lider adını daşımaq şərəfi məhz ömrünü, bütün qüvvə və bacarığını Azərbaycan xalqının azadlığı, müstəqilliyi uğrunda mübarizəyə həsr etmiş XX əsrin böyük siyasətçisi Heydər Əlirza oğlu Əliyevə qismət oldu. Ulu Öndərimiz Heydər Əliyev bu şərəfli missiyanı həm Azərbaycan Respublikasına birinci və həm də ikinci dəfə hakimiyyətə qayıdışı dövründə əyani surətdə sübut etdi.

Heydər Əliyev məhz özünün çevik siyasəti ilə ölkəmizdə siyasi sabitliyi bərpa etdi, dövlətçiliyi qoruyub saxladı və möhkəmləndirdi, demokratik, sivlizasiyalı dövlət qurdu və inkişaf etdirdi.

Heydər Əliyev bu siyasətlə Azərbaycan iqtisadiyyatını düşdüyü dərin böhrandan çıxartdı, islahatlar apardı, bazar iqtisadiyyatının əsaslarını yaratdı və möhkəmləndirdi.

Heydər Əliyev özünün neft strategiyasını hazırlayıb həyata keçirməklə Azərbaycan iqtisadiyyatını dünya iqtisadiyyatına bağladı, xarici investisiyanı cəlb etməklə Azərbaycanı maliyyə çatışmazlığından xilas etdi.Ölkəmizə qabaqcıl elmi, texniki-texnoloji, təhsil və mədəniyyət yeniliklərini, istehsal təcrübəsini cəlb etməklə onun inkişafına zəmin yaratdı.

Regional inkişaf proqramlarının hazırlanması və icrası Heydər Əliyevin iqtisadiyyatın bütün sahələrinin inkişafı, əhalinin rifahının yüksəldilməsi, işsizliyin və yoxsulluğun azaldılması sahəsində qarşıya qoyduğu strateji vəzifələrin yerinə yetirilməsini irəli sürdü. Azərbaycanın hərtərəfli inkişafı, zəngin və iqtisadi cəhətdən qüdrətli dövlətə çevrilməsinin mühüm təşkilati-iqtisadi vasitəsi kimi müəyyənləşdirildi.

Müasir Azərbaycanın memarı və qurucusu dahi Heydər Əliyevin adı isə Azərbaycanın özü qədər əbədi olacaqdır. Heydər Əliyevin Azərbaycan xalqına və dövlətçiliyinə bütün ömrü boyu şərəflə xidmət etməsi həm də onunla təsdiq olunur ki, bu dahi şəxsiyyət 2003-cü ildə Azərbaycanda Prezident seçkiləri ilə əlaqədar xalqa müraciətində özünün uzun illər formalaşdırdığı möhtəşəm siyasi kursu uğurla davam etdirə biləcək ünvanı dəqiq göstərdi. Həmin müraciətdə deyilir: "Üzümü sizə - həmvətənlərimə tutaraq, qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası sədrinin I müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

Ulu Öndərin bu tarixi müraciətindən keçən on doqquz il onun dediklərinin yüksək dərəcədə həqiqət olduğunu bir daha göstərdi. Keçən dövr ərzində dörd dəfə Azərbaycan xalqının əksəriyyətinin böyük dəstəyini qazanaraq Prezident seçilən İlham Əliyev Ümummilli Liderin layiqli varisi olduğunu və Azərbaycan Respublikasını gündən-günə daha yaxşı gələcəyə apar-

**AUDİT 2023, 1 (39), səh. 75-84.**
**AUDIT 2023, 1 (39), pp. 75-84.**
**АУДИТ 2023, 1(39), стр. 75-84.**

dığını sübut etdi.

Bünövrəsi Ulu Öndərimiz Heydər Əliyev tərəfindən qoyulmuş müstəqil Azərbaycan Respublikası artıq on doqquz ildir ki, Prezident İlham Əliyev tərəfindən uğurla idarə olunur və ölkəmiz beynəlxalq aləm və dünyanın aparıcı ölkələri tərəfindən regionun lider ölkəsi kimi qəbul olunur. Bu isə təsadüfi deyildir. Belə ki, Cənab İlham Əliyevin ölkəyə rəhbərliyə başladığı ilk vaxtlardan başlayaraq elmi-texnoloji inkişafa xüsusi diqqət verməsi bu sahədə uğurlu nəticələr əldə etməyə imkan vermişdir. Bunun sayəsində ölkəmizdə iqtisadiyyatın yeni sahələrinin müdafiə və kosmos sənayesinin formalaşması, innovasiyaların tətbiqinə əsaslanan sənaye və aqrar parkların yaradılması və onların ən yeni texnologiyalardan istifadə etməklə daxili bazarın tələbatını ödəyən və ixrac potensialını genişləndirən müxtəlif adda və çeşiddə məhsullar istehsalına başlaması Azərbaycanın uzun müddətli dayanıqlı və davamlı inkişafına zəmin yaradır. Bu isə o deməkdir ki, ölkə rəhbəri dünyada baş verən qlobal proseslərə uyğun müasir çağırışları təmin edən və gələcək inkişafa imkan verən sosial-iqtisadi siyasət formalaşdırır və onun həyata keçirilməsinə yönəlmiş tədbirlər görür.

Prezident İlham Əliyev formalaşdırdığı və həyata keçirdiyi iqtisadi siyasətin əsasını isə iqtisadiyyatın şaxələndirilməsi, neft-qaz sektoru ilə yanaşı qeyri neft sektorunun da elmi-texnoloji əsaslarla inkişafı təşkil edir. Bu məqsədlə dövlət başçısı qeyri-neft sektorunun prioritet sahələri olan turizm və aqrar sahənin inkişafına daim xüsusi diqqət yetirir və bu sahələrdə uğurlu nəticələr əldə etmək üçün möhkəm maddi-texniki baza və infrastrukturun yaradılması istiqamətində təsirli tədbirlər görür.

Ölkəmizdə sosial və iqtisadi inkişafın qlobal çağırışlara uyğun aparılması sayəsində Azərbaycan Respublikasının iqtisadiyyatı son 18 il ərzində 3,3 dəfə artmış, valyuta ehtiyatlarımız 55 milyard dollardan artıq olmuşdur. Bu da respublikamızın gələcək inkişafının başqa ölkələrdən asılı olmadan valyuta ehtiyatları ilə etibarlı təminatı deməkdir.

Bu müddətdə sosial məsələlərə xüsusi diqqət yetirilmiş və bunun nəticəsində işsizlik və yoxsulluq səviyyəsi minimuma endirilmiş, orta aylıq əmək haqqı və pensiyalar dəfələrlə artmış, əhalinin içməli su və təbii qazla təminatı əsaslı surətdə yaxşılaşmışdır.

Prezident İlham Əliyev Ulu Öndərin formalaşdırdığı strategiyaya uyğun həyata keçir-diyi tədbirlər nəticəsində Dünya Bankının "Doinq Business-2020" hesabatına əsasən, dünya iqtisadiyyatında baş vermiş böhranlı 2020-ci ildə Azərbaycan mövqeyini 6 pillə yaxşılaşdıraraq 34-cü pillədən 28-ci pilləyə yüksəlmiş, növbəti dəfə dünyanın "Ən islahatçı 10 ölkəsi" sırasına daxil olmuşdur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən məqsədyönlü siyasət və dərin islahatlar nəticəsində əldə edilən çoxsaylı uğurlar sırasında ən uca zirvədə isə 2020-ci ilin 27 sentyabr 10 noyabr tarixinə kimi davam edən 44 günlük Vətən müharibəsində Müzəffər Azərbaycan ordusunun Ermənistan üzərində qazandığı parlaq qələbə dayanır. Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə əldə olunan bu qələbə Azərbaycan dövlətçilik və müharibə tarixinə qızıl hərflərlə yazıldı. Çünki bu qələbə ölkəmizin ərazi bütövlüyünü təmin etdi, Ermənistanın uzun sürən işğalçılıq siyasətinə son qoydu və Azərbaycan Respublikası vətəndaşlarının və dünya azərbaycanlılarının əyilməz qürurunu özünə qaytardı.

Hazırda işğaldan azad olunmuş əzəli Azərbaycan ərazilərinə Böyük Qayıdışla əlaqədar ölkəmiz tamamilə yeni bir dövrə qədəm qoyur. Bu mərhələdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müəyyən etdiyi strateji vəzifə həmin ərazilərin ölkə iqtisadiyyatına sürətli reinteqrasiyasını təmin etməkdən ibarətdir. Bu məqsədlə Prezident İlham Əliyev tap-

**AUDİT 2023, 1 (39), səh. 75-84.**
**AUDIT 2023, 1 (39), pp. 75-84.**
**АУДИТ 2023, 1(39), стр. 75-84.**

şırıqlarına uyğun olaraq işğaldan azad olunan ərazilərin minalardan təmizlənərək bərpa və yenidənqurma işlərinə başlamaq, o cümlədən sosial-iqtisadi, enerji, kommunal, nəqliyyat infrastrukturunun yaradılması, rasional məskunlaşma siyasətinin həyata keçirilməsi və bununla da doğma yurduna qayıdan vətəndaşlarımıza layiqli yaşayış və işgüzar fəaliyyət üçün hərtərəfli şəraitin yaradılması nəzərdə tutulur. Artıq bu istiqamətdə Prezident İlham Əliyevin nəzarəti altında konkret işlər görülür və xeyli sayda həyati vacib obyektlər istifadəyə verilib. Artıq Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın iştirakı ilə Zəngilan rayonun Ağalı kəndində təməli qoyulan ilk "ağıllı kənd" layihəsinin icrası başa çatmış və ilk sakinlərini qəbul etmişdir. Şübhəsiz ki, bu ərazilərdə aparılan bərpa və yenidən-qurma işləri ölkəmizdə iqtisadiyyatın, xüsusilə aqrar sektorun, yeraltı sərvətlərin istifadəsi, turizmin və digər sahələrin inkişafına güclü təkan verəcək, respublikamızın daha qüdrətli bir diyara çevrilməsinə öz töhfəsini verəcəkdir.

Prezident İlham Əliyevin apardığı quruculuq işləri və həyata keçirdiyi uzaqgörən siyasət sayəsində əldə olunan nailiyyətlər bir daha təsdiq edir ki, Ulu Öndərimiz Heydər Əliyevin Azərbaycan Respublikasına başçılıq etdiyi illər ərzində ölkəmizin müstəqilliyi istiqamətində həyata keçirdiyi geniş miqyaslı işlər Prezident İlham Əliyevin uzaqgörən siyasəti nəticəsində öz bəhrəsini verir, Ulu Öndərin Azərbaycan xalqı və dövlətinin gələcək inkişafı naminə irəli sürdüyü ideyaları bu gün yaşayır və zəfər çalır. Biz hamımız inanırıq ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Respublikası Heydər Əliyev ideyalarına uyğun olaraq gündən-günə inkişaf edən, böyük iqtisadi potensiala malik və demokratik bir ölkə kimi öz suverenliyini və liderliyini daim saxlayacaqdır.

Heydər Əliyev qeyri neft sektorunun inkişafı ilə bağlı da müəyyən fəaliyyət planları da irəli sürmüşdür. Bu fəaliyyət planlarından biri təhsilin inkişafında islahatların geniş miqyas alması idi. "2008-2012-ci illərdə Azərbaycan Respublikasında təhsil sisteminin informasiyalaşdırılması üzrə", "2009-2013-cü illərdə Azərbaycan Respublikasının ali təhsil sistemində islahatlar üzrə," "Azərbaycan Respublikasında 2009-2015-ci illərdə elmin inkişafı üzrə Milli Strategiyanın həyata keçirilməsi ilə bağlı", "Azərbaycan Respublikası Prezidenti yanında Elmin İnkişaf Fondunun yaradılması", "2011-2021- ci illərdə Azərbaycan Təhsilinin inkişafı Milli Strategiyanın hazırlanması," "Azərbaycan 2020: Gələcəyə baxış" kimi dövlət proqramlarında insan kapitalının inkişafı, bilik və informasiyalara əsaslanan inkişaf strateji məqsəd kimi qəbul edilir.

Xüsusilə Strateji Yol Xəritəsində ölkənin dayanıqlı inkişafını və iqtisadi artımın keyfiyyətini təmin etmək üçün insan kapitalının formalaşdırılması və ondan səmərəli istifadə əsas prioritet hesab edilir. Bunun üçün insan kapitalının inkişafında fasiləsizliyin təmin edilməsi, məktəbəqədər və orta təhsil də daxil olmaqla peşə təhsili və ixtisaslı kadr hazırlığının əmək bazarına uyğunlaşdırılması, eləcə də "elm-təhsil-istehsalat" əlaqələrinin təkmilləşdirilməsi məsələləri üzrə ölkədə vəziyyət təhlil edilib. Görüləcək tədbirlər müəyyənləşdirilmişdir. Göstərilmişdir ki, insan kapitalının formalaşdırılması məktəbəqədər təhsilin rolunun zəruriliyinə baxmayaraq, bu yaşda uşaqların məktəbəqədər təhsillə əhatə olunma səviyyəsi aşağıdır. Bu istiqamətdə stimullaşdırıcı tədbirlər kimi bu təhsil müəssisələrinin yaradılması, yüksək ix-tisaslı pedoqoqların hazırlanması, təhsilin icbariliyi, əmək məhsuldarlığının artırılması üçün iri şirkətlərdə belə təhsil müəssisələrinin açılması və bu sahədə dövlət proqramlarının hazırlanması nəzərdə tutulmuşdur.

İnsan kapitalının formalaşdırılmasında, ixtisaslı mütəxəssislərin hazırlanmasında, yeni biliklərin yaranması və tətbiqində birbaşa iştirak edən ali təhsil mühüm mərhələdir. Ölkədə

**AUDİT 2023, 1 (39), səh. 75-84.**
**AUDIT 2023, 1 (39), pp. 75-84.**
**АУДИТ 2023, 1(39), стр. 75-84.**

əmək məhsuldarlığının və iqtisadi artımın yüksəldilməsində fəal iştirakını nəzərə alaraq bu sahədə görüləcək tədbirlər birbaşa ali təhsilin keyfiyyətinin yüksəldilməsi üçün qlobal təhsil məkanına inteqrasiyası və informasiya cəmiyyətinin və biliklərə əsaslanan iqtisadiyyatın tələblərinə uyğunlaşdırılmasından asılıdır.

Qloballaşma şəraitində yeni iqtisadi çağrışlara uyğun rəqabətqabiliyyətli mütəxəssis-lərin hazırlanması, insan kapitalının davamlı və dayanıqlı inkişafına nail olunması üçün öl-kəmizdə ali təhsilin beynəlxalq təcrübəyə uyğun təkmilləşdirilməsi xüsusi aktuallıq kəsb edir. Bu baxımdan "Azərbaycan 2020: gələcəyə baxış" inkişaf konsepsiyası və "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət strategiyası" ilə müəyyən edilmiş fəaliyyət istiqamətləri nəzərə alınmaqla ali təhsil sahəsində yeni Dövlət Proqramının qəbul edilməsi zəruridir. Bundan əlavə "2007-2015-ci illərdə Azərbaycan Respublikası gənclərinin xarici ölkələrdə təhsil üzrə" Dövlət Proqramı"nın uğurlu icrası nəticəsində əldə olunan təcrübə nailiyyətlərindən faydalanaraq müasir kompetensiyalara malik insan resurslarına olan ehtiyacın Azərbaycan Respublikasının ali təhsil müəssisələrində hazırlanması yolu ilə Azərbaycanda insan kapitalının dayanıqlı inkişafının təmin edilməsi, eləcə də Azərbaycan Respublikası vətəndaşlarına aparıcı ölkələrin ali təhsil standartları çərçivəsində keyfiyyətli təhsil almaq imkanının yaradılması məqsədilə "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliyinin artırılması üzrə Dövlət Proqramı" hazırlanmışdır.

Proqramın əsas hədəfi ən qabaqcıl elmi nailiyyətlərdən, innovativ təlim-tədris texnologiyalarından yararlanaraq, ölkəmizdə yeni nəsil mütəxəssislərin yetişdirilməsi, Azərbaycan ali təhsil sisteminin məzmun və keyfiyyət göstəricilərinin beynəlxalq ikili diplom proqramları ilə müasirləşdirilməsidir.

**Təhsil sistemində beynəlxalq təcrübənin tətbiqi**

Ali təhsil müəssisələrinin inkişafına dəstək verilməsi məqsədilə beynəlxalq təcrübənin öyrənilərək tətbiq edilməsi vacib prioritetlərdəndir. ABŞ, Almaniya, Avstraliya, Böyük Britaniya, Fransa və Yaponiya kimi ölkələrdə xüsusilə ötən əsrin sonlarından etibarən aktuallaşmış transmilli təhsil modelinin Azərbaycan Respublikasında tətbiqi uğurlu nəticənin əldə olunmasına şərait yaratmalıdır. Bu baxımdan beynəlxalq ikili diplom proqramlarının ölkəmizdə tətbiqinin təmin olunması xüsusi əhəmiyyət kəsb edir. Bununla əlaqədar ölkənin, inkişaf prioritetlərinə uyğun ixtisaslar üzrə ali məktəblərimizdə tədrisin dünyanın qabaqcıl ali təhsil müəssisələrinin tədris proqramlarına uyğun olaraq təşkili təmin edilməlidir. Mövcud təcrübənin genişləndirilməsi Azərbaycan təhsil sisteminin perspektivdə inkişafı, beynəlmiləlləşdirməsi və təhsilin keyfiyyət səviyyəsinin yüksəldilməsi kimi əsas məqsədlərə nail olunmasına imkan verməlidir.

Beynəlxalq ikili diplom proqramları yolu ilə əcnəbi professor- müəllim heyətinin Azərbaycan Respublikasının ali təhsil müəssisələrində əmək fəaliyyətinə cəlb olunması müasir tədris texnologiyalarının daha surətli yayılmasına şərait yaratmaqla yanaşı, təhsillərini Azərbaycan Respublikasında davam etdirən gənclərimizə də yeni imkanlar açmalıdır. Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin dünya miqyasında nüfuzu artdıqca, gələcəkdə onların müstəqil şəkildə əcnəbi tələbə və professor-müəllim heyətini cəlb etməsi imkanları genişlənməli, beynəlxalq reytinq cədvəllərində irəliləməli, ölkənin sürətli inkişaf tempinə uyğun mütəxəssis hazırlığı mümkün olmalıdır.

Bununla yanaşı, xaricidə dövlət hesabına təhsil sahəsində əldə edilmiş təcrübə əsasında yerli ali təhsil müəssisələrinin akademik potensialının gücləndirilməsi məqsədilə doktorantura səviyyəsi üzrə Azərbaycan Respublikası vətəndaşlarının seçiminin təkmilləşdirilməsi, onların

AUDİT 2023, 1 (39), səh. 75-84.
AUDIT 2023, 1 (39), pp. 75-84.
АУДИТ 2023, 1(39), стр. 75-84.

işəgötürənlərlə birbaşa əlaqələndirilməsi və təhsil nailiyyətlərinin monitorinqi sisteminin yaradılması tələb olunur. Bu istiqamətdə işəgötürənlərin, eləcə də elm və ali təhsil sahəsinin tələblərinin müəyyən edilməsi və müvafiq sahələrdə iş təcrübəsinə malik mütəxəssislərin ixtisaslarının artırılmasına dəstəyin göstərilməsi ilə qısa müddətdə müxtəlif sahələr üzrə Azərbaycan Respublikasının ali təhsil və elm müəssisələri üçün peşəkar mütəxəssislər yetişdirməlidir.

Eyni zamanda Dövlət Proqramı müştərək maliyyələşmə prinsipi əsasında mütəxəssislərin hazırlanmasında işəgötürənlərin iştirakı ilə nüfuzlu xarici ali təhsil müəssisələrində doktorantura səviyyəsi üzrə təhsil almaq arzusunda olanlar üçün imkanların genişləndirilməsinə xidmət etməlidir. Doktorantura səviyyəsi üzrə kadr hazırlığının aparılacağı xarici ali təhsil müəssisələrinin dar ixtisaslaşmalar üzrə dünya reytinqlərinin nəzərə alınması müxtəlif sahələrdə yüksəkixtisaslı mütəxəssislərin hazırlanmasının səmərəliliyini artırmalıdır.

Azərbaycan Respublikasında təhsil sisteminin beynəlxalq təhsil sisteminə inteqrasiyası, qeyd olunan əsas məqsədlərin yerinə yetirilməsi beynəlxalq səviyyətli mütəxəssis və tədqiqatçıların yetişdirilməsində irəliləyişi təmin etməlidir.

Beynəlxalq təcrübəyə əsaslanan tələbəyönümlü öyrənmə, tədris və qiymətləndirmə metodu Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 18 iyul tarixli qərarı ilə təsdiq edilmiş Azərbaycan Respublikasının ömür boyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsi" nə əsasən "Təhsil proqramlarının hazırlanması, qiymətləndirilməsi və təsdiq olunması proseslərinin təlim nəticələrinə əsaslanması" və "Ali təhsil üzrə kvalifikasiyaların Avropa Ali Təhsil Məkanında Keyfiyyətin Təmin Olunması üzrə Standart və Tövsiyələrə uyğun olaraq verilməsi" qaydalarına uyğun olaraq hazırlanmışdır.

Bir təhsil işçisi kimi cəsarətlə deyə bilərəm ki, istər 70-80 –ci illərdə, eləcə də müstəqillik dövründə Heydər Əliyevin diqqət və qayğısı, daimi nəzarəti olmasaydı, Azərbaycan təhsilinin bugünkü dinamik inkişafından danışmağa belə dəyməzdi.

## YEKUN

Təhsil müəssisələri proqramların tələbələrin tədris prosesinin yaradılmasında fəal iştirakını təşviq edəcək və tələbələrin qiymətləndirilməsinin bu yanaşmanı əks etdirəcək tərzdə icrasını təmin etməlidirlər.

Ali təhsil sahəsində keyfiyyət təminatı üzrə Avropa standartları və təlimatları üç hissəyə bölünür:

1. Daxili keyfiyyət təminatı;
2. Xarici keyfiyyət təminatı;
3. Keyfiyyət təminatı agentlikləri.

Yuxarıda qeyd olunan üç standart bir-biri ilə bağlıdır və birlikdə Avropa keyfiyyət təminatı çərçivəsinin əsasını təşkil edir. Xarici keyfiyyət təminatı standartlarının daxili keyfiyyət təminatı standartlarının daxili keyfiyyət standartlarını tanıması ali təhsil müəssisələrinin daxili keyfiyyət təminatı sahəsində apardığı işlərin xarici keyfiyyət təminatı standartlarına uyğun olmasını nümayiş etdirir. Üçüncü bəndə əks olunmuş standartlar ikinci bəndə əks olunmuş standartlarla eyni qaydada əlaqələnir. Beləliklə, yuxarıda qeyd olunan üç komponent ali təhsil müəssisələrində və agentliklərdə bir- birini tamamlayır və digər maraqlı tərəflər də bu işə öz töhfəsini verir. Bir sözlə, üç hissə bir tam kimi qəbul olunmalıdır.

Standartlar Avropa ali təhsil məkanında keyfiyyət təminatı üzrə razılaşdırmış və qəbul edilmiş praktikanı müəyyən edir. Bu səbəbdən, ali təhsil müəssisələri tərəfindən göstərilən

**AUDİT 2023, 1 (39), səh. 75-84.**
**AUDIT 2023, 1 (39), pp. 75-84.**
**АУДИТ 2023, 1(39), стр. 75-84.**

təhsil xidmətləri həmin standartlara uyğun olmalıdır. Keyfiyyət təminatı üzrə standartların ümumilləşdirilmiş siyahısı üçün təlimat verilmişdir.

Təlimatlar standartların nə üçün vacib olmasını izah etməklə onların necə həyata keçirilməli olduğunu təsvir edir. Həmin standartlar keyfiyyət təminatı ilə məşğul olan şəxslərin müvafiq sahədə keyfiyyət təminatı məsələsini nəzərdən keçirməsi üçün yaxşı bir imkan yaradır. Təlimatların həyata keçirilməsi kontekstdən asılı olaraq fərqli ola bilər.

Ali təhsil müəssisələri ictimaiyyət üçün açıq olan və onların strateji idarəetməsinin bir hissəsini təşkil edən keyfiyyət təminatı siyasətinə malik olmalıdırlar. Təşkilatın daxilində olan maraqlı tərəflər bu siyasəti müvafiq struktur və proseslər vasitəsilə və eyni zamanda təşkilatdan kənarda olan maraqlı tərəfləri də bu prosesə cəlb etməklə həmin siyasəti inkişaf etdirməli və həyata keçirməlidirlər.

Ali təhsil müəssisələri proqramların tərtibi və təsdiq olunmasını nəzərdə tutan proseslərə malik olmalıdır. Proqramlar tərtib olunarkən onların qarşısında qoyulan tapşırıqlar, o cümlədən gözlənilən təlim nəticələri nəzərə alınmalıdır. Proqramda nəzərdə tutulan kvalifikasiya aydın şəkildə müəyyən edilməli və əlaqələndirilməli, ali təhsil üzrə milli kvalifikasiya çərçivəsinə, Avropa ali təhsil məkanının kvalifikasiya çərçivəsinə uyğun olmalıdır.

Xarici keyfiyyət təminatı prosesləri etibarlı olmalı, əvvəlcədən müəyyən edilib razılaşdırılmalı və ictimaiyyətə bəyan olunmalıdır. Xarici keyfiyyət təminatı prosesləri zamanı aşağıdakı şərtlərə əməl olunmalıdır:

– özünüqiymətləndirmə və ya buna oxşar proseslər həyata keçirilməli;
– xarici qiymətləndirmə zamanı qiymətləndirmə aparılan yerə səfər edilməli;
– kənar qiymətləndirmənin aparılması nəticəsində hesabat tərtib olunmalı;
– bu sahədə işlərin davam etdirilməsi.

Beləliklə xarici keyfiyyət təminatı nəticəsində əldə edilən istənilən nəticə və ya mühakimələr prosesin rəsmi qərarla nəticələnib-nəticələnməməyindən asılı olmayaraq daim tətbiq edilən açıq və nəşr edilmiş meyarlara əsaslanmalıdır.

## İstifadə olunmuş ədəbiyyat siyahısı:

1. Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi. Bakı- 2016, 110 s.
2. Azərbaycan 2020: Gələcəyə baxış: inkişaf konsepsiyası 29 dekabr 2012, 36-38 s.
3. Azərbaycan Respublikası Prezidentinin 2016 –cı il 6 dekabr tarixi fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında peşə təhsili və təliminin inkişafına dair Strateji Yol Xəritəsi”
4. 2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı.
5. Azərbaycan Respublikasının ömür boyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsi.
6. Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 19 yanvar tarixli “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası.”
7. Avropa ali təhsil məkanında keyfiyyət təminatı üzrə standartlar və təlimatlar (ESG).

**AUDİT 2023, 1 (39), səh. 75-84.**
**AUDIT 2023, 1 (39), pp. 75-84.**
**АУДИТ 2023, 1(39), стр. 75-84.**

*Sabina Tabriz Aliyeva,*
*Ph.D. (Econ.), Associate Professor,*
*Azerbaijan Technical University,*
*E-mail: s_aliyeva99@mail.ru*
*© S.T. Aliyeva, 2023*

## HEYDAR ALIYEV'S ECONOMIC DEVELOPMENT STRATEGY AND A NEW QUALITY PHASE

### A B S T R A C T

Heydar Aliyev, who played an exceptional role in the development of the Azerbaijani people and economy both during the Soviet period and after independence, and who was one of the most powerful personalities of his time, successfully used the qualities of a true leader and mobilized the government of the republic and all administrative structures to eliminate the backwardness in the economy.

Independence Day is the brightest day in the history of Azerbaijan. Our people are celebrating state independence, moving forward on the glorious path of national independence, even though it is difficult. The years of independence are years of self-awareness and self-affirmation for our people.

**Keywords:** economic development strategy, education system, quality assurance, integration, information society.

*Алиева Сабина Тебриз кызы,*
*доктор философии по экономике, доцент*
*Азербайджанский Технический Университет*
*E-mail: s_aliyeva99@mail.ru*
*© Алиева С.Т., 2023*

## СТРАТЕГИЯ ЭКОНОМИЧЕСКОГО РАЗВИТИЯ ГЕЙДАРА АЛИЕВА И НОВЫЙ ЭТАП КАЧЕСТВА

### Р Е З Ю М Е

Гейдар Алиев, сыгравший исключительную роль в развитии жизнедеятельности азербайджанского народа и экономики как в советский период, так и после обретения независимости, и являвшийся одной из самых сильных личностей своего времени, успешно использовал качества настоящего лидера и мобилизовал все силы правительства республики и всех административных структур ликвидировать отставание в экономике.

День независимости – самый светлый день в истории Азербайджана. Наш народ празднует государственную независимость, идет вперед по славному пути национальной независимости, хотя это и нелегко. Годы независимости – это годы самосознания и самоутверждения нашего народа.

**Ключевые слова:** стратегия экономического развития, система образования, обеспечение качества, интеграция, информационное общество.

*Məqalə redaksiyaya daxil olmuşdur: 12.01.2023*
*Təkrar işləməyə göndərilmişdir: 23.01.2023*
*Çapa qəbul olunmuşdur: 01.02.2023*

*Дата поступления статьи в редакцию: 12.01.2023*
*Отправлено на повторную обработку: 23.01.2023*
*Принято к печати: 01.02.2023*

*The date of the admission of the article to the editorial office: 12.01.2023*
*Send for reprocessing: 23.01.2023*
*Accepted for publication: 01.02.2023*